Millətləşmə Dövlətləşmə Bütövləşmə

# Türküstan qəzeti




www.turkustan.biz

e-mail: turkustan@mail.ru

Hər bazar sizinləyik! N: 23 (149) 5-11 iyul 2009-cu il Qiymәti 40 qәpik (AZN)


## Bizim acığımıza...



İran Ermənistanın müdafiə nazirini Tehrana dəvət etdi

Səh. 8-də



## "Saxta dost"

və ya yuxularında Şah Abbasla əlləşən türkofob

Səh. 9-da

## Səddam Hüseynə rəhmət oxutduran ordu



Və ya bir azdan "Kərkük bayatısı" yaramıza məlhəm olmayacaq

Səh. 8-də

Əkbər Qoşalı:



## "Türkcə yazılmış hər bir şeir dəyərlidir"

Səh. 5-də



## Ərk Qalası dağılır

Səh. 4-də

# Onları başa, bizi ayağa...

### Bu bir Azərbaycan sevgisidir, yoxsa düşmən fitnəsi?!






...Bu günlərdə "Türküstan"ın yaxın dostları olan gənclər həyəcanlı şəkildə readksiyaya gələrək heyrətamiz halla qarşılaşdıqları bildirdilər və telefonla çəkdikləri şəkli bizə göstərdilər. Kiminin "şəpit", kiminin "çəkələk", kiminin də "sürütmə" dediyi başmağın üstündə üçrəngli Azərbaycan bayrağı tikilib, içərisinə - yəni geyinilərkən ayağın altında qalan hissəsinə isə iri hərflərlə "AZƏRBAYCAN" sözləri yazılıb...

Səh. 8-də

## Güney Azərbaycan Babək gününü qeyd edəcək



### Yardımlı isə Quzeylə Güneyin birləşdiyi yerdə tədbir keçirəcək

Güney Azərbaycan türkləri böyük sərkərdəmiz, azadlıq simvolu Babəkin doğum gününü qeyd edəcək. Tədbirlər "Babək həftəsi" çərçivəsində şəhərlərin daxilində şənlik formasında keçiriləcək. Yəni Güney Azərbaycanın Kəleybər şəhərində yerləşən Bəzz Qalasına yürüş olmayacaq.

Çünki fars şovinist recimi qalada şənlik mərasimlərinin keçirilməsinə icazə vermir və yürüş etmək istəyən milli fəalları əvvəlcədən həbsxanalara salır...

Səh. 4-də

# Dərbənddə rus şovinstləri ilə üz-üzə

### Dərbənddə keçirilən elmi konfransda nələr yaşandı?

...Təmsilçilərimizdə xüsusilə Dilavər bəyin çıxışı belə demək olarsa gözlənilməz zərbə oldu desək yanılmarıq. Təbii ki, Rus hökumətinə. Çıxışına Azərbaycan türkcəsində başlayan Dilavər bəyin nitqinin bir qismini diqqətinizə çatdırmağı lazım bildik: "Əssəlamu əleykum mənim əziz qardaşlarım və bacılarım. Azərbaycanın qədim şəhəri olan türk şəhəri adlanan Dərbənddə olduğum üçün özümü xoşbəxt sayıram. Dərbənd Azərbaycanın sərhəddidir. Uzun əsrlər boyu onun başkəndi olub.

Şeyx Şamili bizdə uşaqdan böyüyə azadlıq aşiqi kimi sevirlər. Şeyx Şamil o şəxslərdəndir ki, Məkkədə Həzrəti Əli(ə)-nin camaat tərəfindən qaldırıldığı zirvəyə-Kəbənin üstünə qaldırılıb. Bakının mərkəzi küçələrindən biri Şeyx Şamilin adını daşıyır. Bu açıqlamalardan sonra burda iştirak edənləri nəzərə alıb rus dilinə keçirəm ..." Ümumiyyətlə həm bu jesti həm də çıxış elədiyi məruzəsi ilə Dilavər bəy digər nümayəndələrimiz kimi iştirakşıları təəccübləndirdi. Onun məruzəsində əsas məsələ irfan məsələsi olub əsasən müridizmin banisi Azərbaycanlı Şeyx İsmayıl haqqında idi...



Səh. 10-da

# Dərbənddə rus şovinstləri ilə üz-üzə

## Dərbənddə keçirilən elmi konfransda nələr yaşandı?

**18 iyun Azərbaycanın qədim Dərbənd şəhərində Dağıstan Dövlət Universitetinin Dərbənd filialının, Ümumdünya Şamil Fondunun və Dərbənd şəhər Adminstratsiyasının təşəbbüsü ilə "Şimal-şərqi Qafqaz xalqlarının XIX əsrin 20-50- ci illərində azadlıq və müstəqillik uğrunda mübarizəsi: mübahisəli məsələlər və yeni diskussiyalar" adlı beynəlxalq elmi-praktiki konfrans keçirildi. Azərbaycan tərəfini konfransda AMEA-nın elmi işçiləri Xeyirbəy Qasımov, Ramil Niftəliyev, Dilavər Əzimli və mən təmsil edirdik.**

**Konfrans bütünlükdə Şimali Qafqaz xalqlarının yenidən yüksələn xətt üzrə inkişaf edən azadlıq mübarizəsində hansı mövqedən çıxış edəcəklərini bəyan etmələri üçün bir siyasi arena rolunu oynamalı idi. Konfransa Qafqazda yaşayan 15 xalqın bütövlükdə 130 nümayəndəsi dəvət olunsa da dəvətlilərin demək olar ki, yarısı gəlmişdi. Konfransda Azərbaycan, lak, çeçen, dargin, avar, ləzgi, tabasaran, noqay, kumık, rutul və rus xalqının nümayəndələri iştirak edirdi.** Yığıncaq üçün çox maraqlı bir şüar seçilmişdi: *"Qafqaza sülh verin" və dünyəvi cənnəti Fəratda axtarmayın o burdadır, o burdadır..."* Plenium iclasında *Konfransın təşkilati komitəsinin sədri dosent Həşimov Ramis, DDU Dərbənd şəhəri üzrə filialının direktoru İbrahimova Zalixa, Dərbənd şəhərinin bələdiyyə idarəsinin rəisi Qaziaxmedov Feliks, Ümümdünya Şamil fondunun vitse-prezidenti, Qafqaz xalqları Universitetinin prezidenti, akademik, professor Eldarov, Çeçenistan Dövlət Universitetinin professoru Şaxrutdin Kapurov,* Pyatiqorskdan gəlmiş və Rusiyanın maraqlarını müdafiə edən ***Yuri*** və ən nəhayət *Azərbaycan MEA-nın Tarix institutunun elmi işçisi dosent Dilavər Əzimli* başda əyləşmişdi. Konfransın birinci mərhələsi əsasən bir iki məruzə istisna olmaqla əsasən təqdimat xarakterli və konfransın ümumi gediş yolunu müəyyən edəcək aspektdə keçdi. Konfransın birinci mərhələsini təşkil edən iclas 1 saat yarım davam etdi. Feliks Qaziaxmedov tərəfindən açıq elan edildi daha sonra iclas iştirakçılarından Sultanov, Ramis Həşimov, Şaxrutdin Kapurov, Dərbənd şəhərinin bələdiyyə idarəsinin rəisi və Zalixa xanım "Qızıl İmam Şamil ordeni" ilə təltif olundu. Ardınca Kapurov "Qafqaz müharibəsi və müasirlik" mövzusunda məruzə elədi. Bu məruzədə diqqəti cəlb edən əsas cəhət aparılan mübarizənin birbaşa Rusiyaya qarşı deyil, çarizmə qarşı aparılması kimi göstərilməsidir. **Maraqlısı odur ki, hamımızın qəbul etdiyi kimi Rusiya vaxtiylə bütün Qafqazı işğal etməsi məlum olsa da rus nümayəndəsi Rusiya bir yana qalsın heç çarizmi də Qafqazı işğal etməsi deyil köhnə konsepsiya ilə birləşdirilməsi fikrini müdafiə edirdi.** Düzdü bu gözlənilən hal idi və konfransın iclasından sonra da keçirilən seksiyalar da bu yönümdə davam etdi. Azərbaycan tərəfinin məsələyə münasibəti xüsusilə daha maraqlı oldu. AMEA-nın elmi işçisi Xeyirbəy Qasımov Heydər Hüseynovun Şamilin başçılığı ilə aparılan müridizm hərəkatı haqqında tədqiqatları barədə geniş məlumat verdi. Bu çıxışı ilə Azərbaycan tarixşünaslığında bu məsələyə nə qədər xüsusi önəm verildiyini bir daha göstərmiş oldu. İclas üşün nəzərdə tutulan məruzələr başa çatdıqdan sonra konfrans fəaliyyətini daha öncə dediyimiz kimi seksiyalarda davam etdirdi. Məsələnin müzakirəsi üçün 3 seksiya təşkil olunmuşdu: **Qafqaz müharibəsinin mənbələri və tarixşünaslığı; XVIII -XIX əsrin əvvəllərində Şimali-Şərqi Qafqaz xalqlarının sosial-iqtisadi və siyasi inkişafı.Qafqaz müharibəsinin səbəbləri; XIX əsrin 20-50-ci illərində Şimali-şərqi Qafqaz xalqlarının mübarizəsinin iştirakçılarının tərkibi, əsas hadisələri və tarixi əhəmiyyəti; Azərbaycan tərəfinin iştirakı xüsusilə böyük maraq doğurdu. Təmsilçilərimiz əsasən III seksiyada çıxış etdi.** III seksiyada çıxış etməli olan AMEA-nın elmi işçisi Ramil Niftəliyevin məruzəsi "Quba üsyanı" adlanırdı. Burada əsas məsələ bu üsyanın (1837-38-ci illər) Şamil hərəkatının gedişinə necə mühüm təsir göstərdiyi və belə demək olarsa rusların diqqətini özünə yönəltməklə müridizm hərəkatının ömrünü uzatdığı düzgün şəkildə öz əksini tapmışdı. **Təmsilçilərimizdə xüsusilə Dilavər bəyin çıxışı belə demək olarsa gözlənilməz zərbə oldu desək yanılmarıq. Təbii ki, Rus hökumətinə. Çıxışına Azərbaycan türkcəsində başlayan Dilavər bəyin nitqinin bir qismini diqqətinizə çatdırmağı lazım bildik:** *"Əssəlamu əleykum mənim əziz qardaşlarım və bacılarım. Azərbaycanın qədim şəhəri olan türk şəhəri adlanan Dərbənddə olduğum üçün özümü xoşbəxt sayıram. Dərbənd Azərbaycanın sərhəddidir. Uzun əsrlər boyu onun başkəndi olub.*

*Şeyx Şamili bizdə uşaqdan böyüyə azadlıq aşiqi kimi sevirlər. Şeyx Şamil o şəxslərdəndir ki, Məkkədə Həzrəti Əli(ə)-nin camaat tərəfindən qaldırıldığı zirvəyə- Kəbənin üstünə qaldırılıb. Bakının mərkəzi küçələrindən biri Şeyx Şamilin adını daşıyır. Bu açıqlamalardan sonra burda iştirak edənləri nəzərə alıb rus dilinə keçirəm ..."* Ümumiyyətlə həm bu jesti həm də çıxış elədiyi məruzəsi ilə Dilavər bəy digər nümayəndələrimiz kimi iştirakşıları təəccübləndirdi. **Onun məruzəsində əsas məsələ irfan məsələsi olub əsasən müridizmin banisi Azərbaycanlı Şeyx İsmayıl haqqında idi.** Bu çıxışla Dilavər bəy göstərdi ki, müridizmin əsası sufilik, hürufilik kimi məhz Azərbaycan torpaqlarında qoyulmuşdu və Azərbaycan bütövlükdə Qafqazda baş verən hadisələrin təməl daşı olub. I seksiyanın işində digər seksiyalarla müqayisədə daha çox gərginlik yaşandı. Rus hökumətinin maraqlarını müdafiə edən Pyatiqorsklu(Beşdağ) qonaqlar Boris Vinaqradov, Yuri öz çıxışlarında təkidlə çarizmin işğalını nəinki birləşdirmə kimi verməklə qalmadılar, hətta öz fikirlərini əsaslandırmaq üçün ənənəvi metodlardan yararlandılar və öz əməllərini Qafqazı Osmanlı və Kırım zülmündən müdafiə kimi qiymətləndirdilər. Bundan savayı Car-Balakən məsələsini Vinaqradov önə ataraq bu ərazinin Şimal-şərqi Qafqaz xalqları tərəfindən zəbt edildiyini önə sürdü. Lakin bu zaman yerindəcə Azərbaycan tərəfinin Xeyirbəy bəydən layiqli cavabını aldı. O Vinoqradova başa saldı ki, birincisi bu ərazi Azərbaycana məxsus olub və məxsusdur, ikincisi ora işğala yalnız rus hökuməti tərəfindən məruz qalıb. Qaldı ki, Şimali Qafqaz məsələsinə bu ərazi həmin torpaqlarla sərhədd olduğunda həmin xalqlar tərəfindən məskunlkaşdırılması da təbii hal kimi qarşılanmalıdır. Bu məsələdə uğur qazana bilməyən yoldaş "Üzümov" bu dəfə konfransa heç bir aidiyyatı olmayan cihad məsələsini ortaya atdı. Təbii ki, bunun qarşısı vaxtında alındığından "Üzümov" (Vinoqradov) həyatına zəmanət ala bildi əks təqdirdə məsələ başqa cür həll olunacaqdı. **Həm lak xalqının təmsilçisi Hacı Axmetoviçin, həm DDU-nin Dərbənd filialının tarix fakültəsinin dekanı tabasaranlı Əbdülsalam bəyin, həm də çeçen Musa Arunoviçin nitqində rus işğalı kəskin şəkildə tənqid olunsa da, son nəticədə bu işğalı həmin imperiyanın varisi Rusiya Federasiyasına aid etməkdən çəkindilər. Konfransın gedişində mübahisə doğuran məsələlərdən biri də azadlıq hərəkatının dərsliklərdə öz əksini hansı şəkildə tapması oldu. Məsələn Dağıstan tarixi kitabında bu azadlıq müharibəsi adlandırılır və ona çox qısa xülasə şəklində yer ayrılır. Rusiya tarixi kitabında demək olar ki, tam başqa aspektdə bu məsələyə baxılır. Məsələ zənn edirəm sizlərə aydındır və şərhə ehtiyac yoxdur. Konfrans saat 10:00-dan 14:30 kimi davam etdi və 4 saat yarımlıq fəaliyyətinin sonunda region üçün çox mühüm bir qərar qəbul edildi. Bu azadlıq müharibəsini araşdırmaq üçün Assossasiya yaradılması qənaətinə gəldilər. Bu Assossasiyanın işində orda iştirak edən hər bir bərabər hüquqlu üzv kimi Azərbaycan tərəfi də iştirak hüququ qazandı.**









Bir qədər konfrans hüdudlarından kənara çıxaraq orda yaşayan azərbaycanlılarımız haqqında məlumat verməyi özümüzə borc bilirik. **Bütövlükdə 120 000 əhalisi olan Dərbənddə əhalinin 40 000-i Azərbaycan türkləridir. Onlar öz dilində yalnız orta məktəbdə 1-ci sinifdən 4-cü sinifə kimi təhsil alır. Xüsusi Azərbaycan məktəbləri yoxdur. Şəhərdə fəaliyyət göstərən cəmiyyətimizin fəaliyyəti hal-hazırda sıfıra bərabərdir. Rus hökumətini məkrli siyasətinin bir hissəsini təşkil edən ləzgi xalqının kütləvi şəkildə orda məskunlaşdırılması və ümumilikdə götürərsək son zamanlarda orda məskunlaşan ləzgilərin 70%-nin gəlmə olması sonda qırğına apara biləcək mahiyyətcə yeni olmayan ssenarinin bir parçasıdır. Bu tipli qırğınlar hamımıza bəllidir və böyük dövlətlərin siyasətinin bir parçasını təşkil edir. Hələ 1992-93-cü illərdə Dərbənddə azərbaycanlılarla ləzgilər arasında qırğın baş verməsi planlaşdırılsa da şəhər əhalisini ayağa qalxması sayəsində bunun qarşısı alınmışdı. Hal-hazırda belə halın baş verməsi istisna olunmur. Ermənilərə "böyük Ermənistan" vəd edən rus ayısı bu dəfə də ləzgilərə "böyük ləzgistan" vəd edir. Bizim ləzgi xalqı ilə heç bir zaman problemimiz olmayıb. Onlar hal-hazırda Respublikamızın hüdudlarında da yaşayırlar və Azərbaycan vətəndaşı kimi onların hüquqları qorunur və heç bir ayrı seçkiliyə yol verilmir.**

**Sözlərimi Xeyirbəy bəyin konfransdan sonra nahar yeməyi vaxtı dediyi sağlıqla bitirirəm: "Hal-hazırda aramızda sərhəd olsa da, qoy qəlblərimizdə heç bir zaman sərhəd olmasın."**

Elnur Nəciyev
BDU-nun Tarix fakültəsinin III kurs tələbəsi
Bakı-Dərbənd-Bakı